

# Heydər Əliyev



# məhkəmə-hüquq sistemində islahatların ideya müəllifidir

❒ **Azərbaycanın müstəqilliyinin əbədiliyini, dövlətin sarsılmazlığını, demokratik yüksəlişini təmin edən ümummilli liderimiz Heydər Əliyev fəaliyyəti dövründə məhkəmə-hüquq sisteminə mühüm önəm vermiş, bu sahənin inkişafına xüsusi qayğı ilə yanaşmışdır. Dahi öndərin respublikamıza rəhbərliyinin birinci dövründə Ədliyyə Nazirliyinin dövlət strukturu kimi bərpa olunması, qurumun əsasnaməsinin təsdiq edilməsi ilə qanunların sistemləşdirilməsi və məcəlləşdirilməsində, eyni zamanda, məhkəmələrin təşkilati cəhətdən formalaşdırılmasında yeni bir mərhələ başlanmışdır.**

Qeyd edək ki, 1981-ci ildə Heydər Əliyevin rəhbərliyi ilə respublikada “Məhkəmə quruluşu haqqında” yeni qanunun qəbul edilməsi məhkəmə orqanlarının inkişafı və möhkəmlənməsi üçün əlverişli şərait yaratmışdır. Bu qanun 1960-cı ildə qəbul edilmiş qanuna nisbətən geniş və mütərəqqi sənəd olmaqla bərabər, həm də Azərbaycan SSR Ali Məhkəməsindən, Naxçıvan MSSR Ali Məhkəməsindən, Bakı Şəhər Məhkəməsindən, DQMV-nin Vilayət Məhkəməsindən, rayon (şəhər) xalq məhkəmələrindən ibarət məhkəmə sistemini formalaşdırmışdır.

Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi 1993-2003-cü illərdə Ədliyyə Nazirliyinin funksiyalarının yeni ictimai-iqtisadi formasiyanın tələblərinə uyğunlaşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilmiş, nazirliyin yeni qanunvericiliyin tələbləri səviyyəsində qurulması məqsədilə müvafiq struktur dəyişiklikləri aparılmış, yeni üçpilləli məhkəmə sisteminin yaradılması və formalaşdırılması diqqət mərkəzində saxlanılmış, Məhkəmə Nəzarətçiləri və Məhkəmə İcraçıları Xidməti təsis edilmişdir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuş, ölkəmizdə müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesinin yeni mərhələsi başlanmışdır. Qısa zamanda müdrik rəhbərin dərin məntiqinin, silinməz dəst-xəttinin və zəngin siyasi təcrübəsinin ən böyük bəhrələrindən biri olan Konstitusiya layihəsi hazırlanmış və geniş ictimai müzakirələrdən keçərək 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunmuşdur. Yeni Konstitusiya Azərbaycanda dövlət quruculuğu sahəsində fundamental islahatlara yol açmışdır. Konstitusiya sovet rejiminin institutlarını, dəyərlər kimi xalqın beyninə yeridilən ideologiyaları əbədilik tarixə gömərək demokratik inkişafın möhkəm bünövrəsini qoymuşdur. Həmin dövrdə məhz ulu öndərin Konstitusiyanın hazırlanması işinə rəhbərlik etməsi onun mükəmməlliyini, siyasi-hüquqi akt və tarixi sənəd kimi mötəbərliyini təmin edən amil olmuşdur.

Konstitusiyanın qəbulundan sonra ulu öndər Heydər Əliyevin rəhbərliyi və fəal iştirakı ilə məhkəmə-hüquq islahatlarının aparılması, qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi sahəsində Azərbaycanda demokratik quruluşun, eləcə də hüquqi dövlətin möhkəm təməli qoyulmuşdur.

Böyük öndərin ədalətli idarəçilik sistemi yaratmaq amalı onun məhkəmə-hüquq islahatlarını prioritet məsələ olaraq məqsəd seçməsində özünü büruzə vermişdir. Məhz bunun nəticəsidir ki, Heydər Əliyevin təşəbbüsü ilə məhkəmə hakimiyyəti anlayışı ilk milli Konstitusiyamızda öz əksini tapmış, Əsas Qanunda məhkəmə hakimiyyətinə verilən səlahiyyətlərə hakimlərin sərbəstliyi və müstəqilliyi daxil edilməklə ölkədə insan hüquqlarının qorunması və məhkəmə sistemində ədalət mühakiməsinin səmərəli təşkili baxımından mütərəqqi addımlar atılmışdır.

“Biz humanist, demokratik dövlət qururuq, demokratik prinsiplər əsasında yaşamaq istəyirik. İnsan hüquqlarının, insan şəxsiyyətinin qorunmasına çalışacağıq. Ancaq gərək insan da dövlətin qanunlarına riayət etsin. Dövlətin qanunlarına əməl etməyən insan dövlətin qanunları əsasında cəzalanmalıdır. Başqa yol yoxdur. Biz özbaşınalığa, hərc-mərcliyə yol verə bilmərik”, – deyən ümummilli lider “Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsi tədbirləri haqqında” 1994-cü il 9 avqust tarixli fərmanı ilə respublikada qanunun aliliyinin əsas istiqamətlərini müəyyənləşdirmişdir.

> ***Biz istəyirik ki, dövlətimiz tam demokratik, tam hüquqi, tam dünyəvi bir dövlət olsun. Bunun üçün də Azərbaycanda demokratiyanın bərqərar olması, inkişaf etdirilməsi, hüquqi aliliyin təmin olunması əsas vəzifəmizdir.***
>
> ***Heydər ƏLİYEV,***
> ***Ümummilli lider***

Ulu öndər Heydər Əliyevin 1998-ci il fevral ayının 22-də imzaladığı “İnsan hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” fərmanla insan hüquqlarının təminatı istiqamətində həyata keçirilən tədbirlərin mahiyyəti və konsepsiyası da dəqiqləşdirilmiş, bu sənədlə insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır.

İnsan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədilə dahi rəhbər tərəfindən 1998-ci il iyun ayının 18-də imzalanan müvafiq sərəncamla “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı” hazırlanmışdır. Həmin proqramda insan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli müvəkkili təsisatının yaradılması, Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual, Mülki və Mülki-Prosessual məcəllələrinin təkmilləşdirilməsi məqsədilə qanun layihələrinin hazırlanması, “Prokurorluq haqqında”, “Vəkillik haqqında”, “Notariat haqqında” qanun layihələri üzrə işlərin tamamlanması, “Azərbaycan Respublikası milli təhlükəsizlik orqanları haqqında” qanun layihəsinin hazırlanması və digər mühüm məsələlər nəzərdə tutulmuşdur.

Ulu öndərin 1996-cı il 21 fevral tarixli müvafiq sərəncamı ilə yaradılmış Hüquq-İslahat Komissiyası tərəfindən işlənib hazırlanmış “Konstitusiya Məhkəməsi haqqında”, “Məhkəmələr və hakimlər haqqında” qanunlar müstəqil məhkəmə sisteminin yaradılmasına və fəaliyyət göstərməsinə imkan yaratmış, insan hüquq və azadlıqlarının müdafiəsi məqsədilə məhkəmə hakimiyyətinin müstəqil fəaliyyətinə təminat vermişdir.

Qanunun aliliyinin təmin edilməsi, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin genişləndirilməsi məqsədilə 1998-ci ilin iyul ayında Konstitusiya nəzarəti orqanı olan Konstitusiya Məhkəməsi yaradılmış, 2000-ci ilin sentyabr ayında Azərbaycanda üçpilləli yeni məhkəmə sistemi fəaliyyətə başlamış, 2004-cü ildə məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası təsis edilmişdir.

1998-ci il iyulun 14-dən fəaliyyətə başlayan Konstitusiya Məhkəməsi ölkədə konstitusiya nəzarətini həyata keçirməklə insan hüquq və azadlıqlarına dair konstitusiya müddəalarının düzgün başa düşülməsini, həmin konstitusion normaların tətbiqinə mane olan normativ-hüquqi aktların qüvvədən salınmasını və beləliklə, insan hüquq və azadlıqlarının reallaşdırılması üçün uyğun şəraitin yaradılmasını təmin etmişdir.

Konstitusiya normalarının və bu normalar əsasında qəbul edilən aktların həyata keçirilməsinin məntiqi nəticəsi kimi qısa müddət ərzində ölkədə hüquq sistemində köklü dəyişikliklər həyata keçirilmiş, beynəlxalq təşkilatlar və ekspertlər tərəfindən yüksək qiymətləndirilən, insan hüquqlarının daha etibarlı təminatına xidmət edən, müasir tələblərə cavab verən “Prokurorluq haqqında”, “Polis haqqında”, “Vəkillər və vəkillik fəaliyyəti haqqında”, “Əməliyyat-axtarış tədbirləri haqqında”, “Notariat haqqında” və s. qanunlar, Mülki, Mülki-Prosessual, Cinayət, Cinayət-Prosessual, Vergi, Ailə, Əmək və sair məcəllələr qəbul olunmuşdur.

1998-ci il fevralın 22-də ümummilli lider Heydər Əliyev “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” fərman imzalamış, insan hüquqları sahəsində həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası səhih şəkildə müəyyənləşdirilmişdir. İnsan hüquqları sahəsində proqram rolunu oynayan bu sənədlə insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır. 1998-ci il iyulun 18-də isə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı” təsdiq olunmuşdur.

Ümummilli liderin 1998-ci il dekabrın 1-də imzaladığı müvafiq fərmanla qüvvəyə minmiş “Məhkəmələr və hakimlər haqqında” qanun bu sahədə qanunvericiliyin müasirləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması baxımından mühüm addım olmuşdur. Hakim vəzifəsinə seçkilərin test üsulu ilə, tamamilə açıq, şəffaf, obyektiv və ədalətli prosedur əsasında keçirilməsi prinsiplərini müəyyənləşdirən qanunda məhkəmə hakimiyyətinin dövlət idarəçilik sistemində nüfuzlu, mötəbər və müstəqil təsisat kimi formalaşması məsələsinə də xüsusi diqqət ayrılmışdır. “Məhkəmələr və hakimlər haqqında” qanuna müvafiq olaraq yeni qurum - hakim vəzifəsinə müstəqil namizədlərin seçilməsi, onların fəaliyyətinin qiymətləndirilməsi, habelə məhkəmələr və hakimlərlə bağlı digər məsələləri həyata keçirən Məhkəmə Hüquq Şurası yaradılmışdır.

Dahi öndərin siyasi kursunu 2003-cü ildən etibarən ləyaqətlə həyata keçirən möhtərəm Prezidentimiz İlham Əliyev hər zaman məhkəmə sisteminin inkişafına qayğı ilə yanaşmış, məhkəmə hakimiyyətinin möhkəmləndirilməsinə, müasirləşdirilməsinə xüsusi diqqət yetirmişdir.

Dövlət başçısının “Elektron məhkəmə” informasiya sisteminin yaradılması haqqında müvafiq sərəncamı ilə sözügedən sahədə strateji prioritetlər müəyyənləşdirilmiş, məhkəməyə müraciət imkanları daha da genişləndirilmiş, süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasında, şəffaflıq və operativliyin təmin olunmasında müsbət nəticələr əldə edilmişdir.

Məhkəmə sistemində həyata keçirilən islahatların əsas hədəflərindən biri də regionlarda yaşayan vətəndaşların qanuni maraq və mənafeyinin ədalət mühakiməsi yolu ilə qorunması mexanizmlərinin təkmilləşdirilməsidir. Dövlət başçısının 19 yanvar 2006-cı il tarixli “Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” fərmanı bölgələrdə yaşayan vətəndaşların məhkəmələrə müraciət imkanlarını genişləndirmiş, bu sahədə bir sıra mütərəqqi yeniliklərə imza atılmışdır. Regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən bir sıra təşkilati-hüquqi, sosial tədbirlərin mahiyyətindən irəli gələn həmin fərman əsasında bölgələrdə yeni apelyasiya və iqtisad məhkəmələri yaradılmışdır.

Son illərdə məhkəmələrin səmərəli fəaliyyəti məqsədilə yeni binaların inşası diqqət mərkəzində saxlanılır. Binalarda dövlətimizin başçısının tapşırığına uyğun olaraq “Elektron məhkəmə” informasiya sisteminin tətbiqi ilə bağlı zəruri infrastruktur qurulur, vətəndaşların müraciət imkanlarının asanlaşdırılması, habelə məlumatlılığın təmin edilməsi üçün məlumat nöqtələri, habelə müasir elektron informasiya daşıyıcıları quraşdırılır, “Elektron icra” sistemi tətbiq olunur və bu sistem vasitəsilə məhkəmə qərarlarının elektron qaydada icraya yönəldilməsi reallaşdırılır, məhkəmə ilə icra qurumu arasında sənədlərin kağızsız mübadiləsi həyata keçirilir.

Yeri gəlmişkən, Azərbaycanda insan haqlarının etibarlı təminatına yönəlmiş məhkəmə islahatlarına beynəlxalq qurumlar tərəfindən böyük maraq göstərilərək, əldə edilən nailiyyətlər müsbət dəyərləndirilir və digər dövlətlərə örnək kimi tövsiyə olunur. Məsələn, sözügedən sahədə islahatlara xüsusi önəm verən Dünya Bankı respublikamızda ədliyyə sahəsindəki layihələri ən uğurlu layihələrindən biri kimi qiymətləndirib və “Vətəndaşlara yüksək səviyyəli xidmətlərin göstərilməsi məqsədi ilə müasir infrastrukturun yaradılması” nominasiyasının qalibi elan edib.

Eyni zamanda, Avropa Şurasının mühüm təsisatı olan Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) ölkəmizin bu sahədə nailiyyətlərini və uzun müddət səmərəli əməkdaşlığı nəzərə alaraq plenar iclaslarından birini Strasburqdan kənarda, Bakıda keçirib, respublikamızda hakimlərin seçim prosedurunu şəffaflığına, obyektivliyinə və saflığına görə fərqləndirərək digər dövlətlər üçün örnək kimi dəyərləndirib. Həmçinin özünün bütün üzv dövlətlərdə yayılan dövri nəşrində Azərbaycanda həyata keçirilən məhkəmə islahatlarına böyük önəm verərək buna ayrıca bölmə həsr edib. Avropalı ekspertlər Azərbaycan hakimiyyətinin bu sahədə gördüyü işləri yüksək qiymətləndirib və belə qənaətə gəliblər ki, ədalət mühakiməsi sistemində səmərəli islahatların aparılması, məhkəmələrin unikal infrastrukturunun yaradılması, ən müasir informasiya texnologiyalarının və yeniliklərin tətbiqində Azərbaycan bir çox Avropa ölkələrinə nümunə ola bilər.

Ötən il isə ölkəmiz məhkəmə sistemindəki nailiyyətlərinə görə, Avropa Şurası tərəfindən “Ədliyyənin kristal tərəzisi” müsabiqəsinin mükafatçısı olub. Xatırladım ki, 2005-ci ildən etibarən iki ildən bir keçirilən bu müsabiqədə ədliyyə və məhkəmə sistemlərinin fəaliyyəti ilə bağlı Avropa Şurasının üzv dövlətləri tərəfindən təqdim olunan layihələr sırasından dörd ən qabaqcıl və səmərəli təcrübə seçilərək mükafatlandırılır.

Yuxarıda adıçəkilən müsabiqədə Azərbaycan “Elektron məhkəmə” informasiya sisteminin tərkib hissəsi olan “Məhkəmənin nəbzi: idarəetmədə inqilab” adlı layihə ilə iştirak edib və həmin layihə Avropa ekspertləri tərəfindən məhkəmə sistemində elektron idarəetmənin tətbiqi baxımından ən mütərəqqi layihə kimi qiymətləndirilərək mükafata layiq görülüb.

***Zaur PİRVERDİYEV,***
***Sumqayıt İnzibati-İqtisadi Məhkəməsinin hakimi***